No: 02 2026
https://doi.org/10.64400/ea26-02-15
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCANDA İNVESTİSİYA SİYASƏTİNİN FORMALAŞDIRILMASI MODELİ

**Rahibə ƏBDÜLHƏSƏNOVA**
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif:* abdulhasanovarahiba@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 06.06.2026
*Nəşr edilmə tarixi:* 25.06.2026

**AÇAR SÖZLƏR:** *investisiya, prioritetlər, mərhələlər, təsir metodları, formalaşma modeli.*

**XÜLASƏ**
Məqalədə dövlətin investisiya siyasətinin əsas prioritetlərinin həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi kontekstində davamlı investisiya və maliyyələşmə siyasətinin əsas istiqamətlərdən biri olduğu vurğulanmaqla investisiya fəaliyyətinin mərhələlərinə görə investisiya siyasəti metodlarının təsnifatı və ölkədə investisiya siyasətinin formalaşdırılması modelinin tərtib edilməsinə fərqli yanaşmanı əhatə edən problemlərdən bəhs edilir. Məqsəd investisiya siyasətinin mərhələləri əsasında investisiya şəraitinin yaradılması, fəaliyyətin aktivləşdirilməsinə və nəticələrin formalaşması mərhələlərinə təsir göstərən metodların birbaşa və dolayı təsirlərinin müəyyən edilməsindən ibarətdir. Tədqiqatın metodologiyasını investisiya siyasəti prioritetlərinin icra edilməsi mexanizmlərinin təkmilləşdirilməsi faktorlarının aşkar edilməsi zamanı sistemli təhlil, müqayisə, deduksiya və induksiya metodları təşkil edir. Elmi yenilik Azərbaycanda investisiya siyasətinin formalaşdırılması modelinin işlənilməsindən ibarətdir. Məqalənin praktiki əhəmiyyəti investisiya fəaliyyəti mərhələlərinə birbaşa və dolayı təsir metodlarından dövlətin investisiya siyasətinin işlənilməsində, investisiya fəaliyyəti prioritetlərinin müəyyənləşdirilməsində istifadə edilməsinin mümkünlüyündən ibarətdir.

## GİRİŞ

Dövlətin investisiya siyasətinin (DİS) effektiv mexanizminin işlənilməsi və inkişaf etdirilməsi məqsədi ilə tətbiq ediləcək metod və vasitələrin tərkibini, onlar arasındakı əlaqəni müəyyənləşdirmək vacib şərtlərdən biridir. Dinamik investisiyalar investisiya proseslərinin inkişafı üçün ümumi bir orient olaraq qəbul edilir. Bu, dövlətin davamlı iqtisadi inkişaf sahəsindəki iqtisadi siyasətinin nəticələrini, habelə ölkənin iqtisadi bazasında struktur dəyişikliklərinin həcm, istiqamət və quruluşu əsasında həyata keçirilməsini qiymətləndirmək üçün istifadə olunur. Müasir dövrdə genişləndirilmiş təkrar istehsal sxemlərinə əsasən sosial-iqtisadi inkişafı dəstəkləmək ehtiyacı ilə əlaqəli gündəlik məsələlər axını olaraq, mövcud iqtisadi model və qaçılmaz zərurətdən irəli gələn təbiət qüvvələrinin kəskin böhran riskinə son qoyması, həmçinin müxtəlif iqtisadi sahələrdə istifadə olunan avadanlıqların kütləvi şəkildə sıradan çıxması və uzun müddət istismar ehtiyatına xidmət etmiş, lakin praktik olaraq təcili rejimdə işləməyə davam etmiş texnika və texnologiyaların yararsız hala düşməsi ilə əlaqəli yeni investisiyaların yatırılmasına ehtiyac yaranır. Fövqəladə sifarişlərə təcili iqtisadi islahatların və struktur yenilənmələrinin strateji problemini həll etmək üçün investisiya axtarmağın zəruriliyini də aid etmək olar ki, bu da ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinə nail olmaq məqsədini ifadə etməklə siyasi, iqtisadi və sosial inkişafın təbiətinə uyğun gəlməlidir (Dadaeva et al., 2021). Azərbaycan iqtisadiyyatında investisiyaların müəyyənləşdirilməsində onların iqtisadi əhəmiyyətini anlamaq üçün müxtəlif yanaşmaları əks etdirən fərqli dəyişikliklər baş verir. Bu, əsasən iqtisadi inkişaf dərəcəsi ilə şərtləndirilməklə tarixi-iqtisadi inkişafın ayrı-ayrı mərhələlərinin xüsusiyyətləri, üstünlük təşkil edən idarəetmə forma və metodu ilə əlaqədardır. Son illərdə daxili iqtisadi ədəbiyyatlarda əsasən kapitalist iqtisadiyyatının araşdırmaları proseslərinin təhlilinə qoyulan investisiya şərtləri praktik olaraq istifadə edilmir. Beləliklə, investisiya qoyuluşunun (fəaliyyətinin) əsas konsepsiyası kapital qoyuluşu anlayışını əhatə edir.

Qeyd edək ki, investisiya siyasəti mexanizminin tədqiq edilməsi problemləri bir sıra yerli və xarici tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Dövlətin investisiya siyasəti bütün təsərrüfat subyektləri üçün əlverişli şəraitin yaranmasına, investisiya fəallığının artırılmasına, iqtisadiyyatın stimullaşdırılmasına, istehsalın səmərəliliyinin artırılmasına və sosial problemlərin həllinə yönəlmiş

məqsədyönlü tədbirlər kompleksidir . Dövlətin investisiya siyasətinin məqsədi isə ölkənin iqtisadi və sosial inkişafı üçün strateji planın həyata keçirilməsi, daxili iqtisadiyyatın inkişafı üçün investisiya fəaliyyətinin aktivləşdirilməsi və sosial istehsalın səmərəliliyinin artırılmasından ibarətdir (Dadaeva, Nazaeva, Cucullayeva, 2021; Holt, Pressman, Spash, 2009).

İnvestisiya fəaliyyətinin mahiyyəti, forması və prinsiplərinin təhlilinə bazar yanaşması Azərbaycan qanunvericiliyində investisiyaların müəyyənləşdirilməsində öz əksini tapmışdır. Azərbaycan Respublikasının investisiya fəaliyyəti qanununa (22 iyun 2022-ci il) uyğun olaraq investisiya fəaliyyətində dövlət siyasəti aşağıdakıların yerinə yetirilməsini təmin etməlidir: -lazımi investisiya mühitinin formalaşdırılması ilə azad rəqabət mühitinə geniş imkanların açılması; -investisiya yatıran fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinin qorunması, investisiya qoyuluşu risklərinin azaldılması; -investisiya fəaliyyəti zamanı investorlara yaradılmış imkanlardan bərabər yararlanması üçün şəraitin təmin edilməsi; -investisiya fəaliyyəti prosesinin icrası dövründə stabilliyin təmin olunması; -iqtisadiyyatın inkişafına yonəldilmiş prioritet sahələrdə investisiya layihələrinə dəstəyin verilməsi; -investisiya fəaliyyəti zamanı investorlar üçün xidmətin rəqəmsallaşdırılması və onların "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsi.

## MATERİAL VƏ METODLAR

Tədqiqat işində qoyulmuş problemlərin həlli üçün ilkin mərhələdə müvafiq ədəbiyyatlara istinad edilmiş, tədqiqatçıların əldə etdikləri nəticələrə müəllif yanaşması verilmişdir. İnvestisiyanın inkişaf mərhələsi adlana bölmədə iqdisadi fəaliyyət növünə investisiya qoyuluşunun zəruri elementi olan xərclər və onların əldə olunmasının qarşılıqlı təsirini nəzərə almaqla investisiya qoyuluşunun ardıcıl elementlərinin icra edilməsinin zəruriliyi əks olunur.

Növbəti bölmədə investisiya fəaliyyətinin mərhələlərinə görə investisiya siyasəti metodlarının birbaşa və dolayı təsir təsnifatı verilməklə yuxarıda əsaslandırılmış fikirlər üzrə problemin həlli istiqamətindəki fərqli yanaşmalar müəllif tərəfindən ümumiləşdirilmiş və investisiya prioritetlərinin realizasiya mexanizminin bir elementi olaraq, investisiya mənbələrinni deyil, bilavasitə hədəf investorlarının nəzərdən keçirilməsi təklif olunur. Tədqiqat işinin təhlil və müzakirə bölməsində ümumiləşdirilmə metodundan istifadə edilməklə regionlarda prioritet sahələr üçün investisiya siyasəti alət dəsti modelləşdirilmiş və investisiya siyasətinin formalaşma modeli təklif olunmuşdur. Nəticə bölməsində səylərin müəyyən sahələrə və potensial investorların müvafiq hədəf qruplarına yönəldildiyi ərazinin investisiya cəlbediciliyinin formalaşmasına ünvanlı bir yanaşma təklif olunmuş, müqayisə olunan iki iqtisadi rayonun (Qarabağ və Şərqi Zəngəzur) prioritet sahələri üzrə konkret olaraq xüsusi alətlərin növləri qısaldılmış variantda verilmişdir. Həmçinin, tədqiqat işində regional investisiya portfelinə daxil olan bütün sahələr üçün tam strukturlaşdırılmış paketlər formalaşdırılmışdır.

## MÜZAKİRƏ

**İnvestisiyanın inkişaf mərhələləri, prioritetlərinin icra edilməsi mexanizmlərinə təsir göstərən faktorlar.** İnvestisiyalar bazar yönümlü ilk qanunlardan biri olmaqla bütün əmlak və intellektual dəyərlərə qoyulur, mənfəət (gəlir) və ya sosial-istehsal effekti yaradaraq təsir nəticəsində bütün (kommersiya və s.) fəaliyyət növlərinə yönəldilir. İnvestisiyaların inkişafı iki əsas mərhələni özündə ehtiva edir:

- birincisi, investisiya resursları fondlara qoyulan investisiyaların həqiqi investisiya fəaliyyətinə daxil olduğunu ifadə edir;
- ikincisi- qoyulmuş investisiyalardan xərclərin qaytarılmasını və investisiyanın istifadəsindən gəlir əldə edilməsini əhatə edir.

İnvestisiya qoyuluşu hər hansı bir iqtisadi fəaliyyət növünün iki zəruri elementinin əlaqəsini və qarşılıqlı asılılığını: xərclər və onların qaytarılması təsvir edir. İnvestorlar müstəqil olaraq investisiya obyektlərini seçir, investisiyaların istiqamətini, miqyasını və səmərəliliyini müəyyənləşdirir və investisiyalaşdırılacaq hədəfə uyğun istifadə edilməsinə nəzarət edirlər. İnvestisiya resurslarının sahibləri kimi onların investisiya fəaliyyətinin obyektlərini və nəticələrini

yenidən investisiyalaşdırmaq, idarə etmək və istifadə etmək hüququ vardır ( Kruqlyakova, 2013). İnvestisiya fəaliyyəti ölkə iqtisadiyyatına və ya regiona investisiya qoyuluşu həcminin artımının təmin edilməsi üçün yeni səmərəli şəraitin yaradılmasının vacib vəzifə olduğunu əsaslandırır. Eyni zamanda, bazarlarda investisiya aktivlərinin inkişafına, investorların həvəsləndirici davranışına bir sıra amillərin təsirinin, habelə dövlət büdcəsinin və investisiya siyasətinin nəzərə alınmasını zəruri edir. Ölkənin investisiya siyasətinin səmərəli mexanizmini əhatə edən tədqiqatların geniş profildə aparılmasına baxmayaraq, ünvanlılıq prinsipinin həyata keçirilməsini təmin edən çevik bir mexanizmin qurulması üsulları kifayət qədər işlənilməmiş olduğu üçün tədqqiqat işində belə bir mexanizmin hazırlanması məqsədəuyğun hesab edilir. Bir sıra tədqiqatçılar investisiya fəaliyyətinin dövlət tənzimlənməsi metodlarını *"məqsədlərə nail olmaq üçün ölkə və regionların institutları tərəfindən istifadə olunan investisiya sferasına təsir alətlərinin məcmusu"* kimi müəyyən edirlər (Soloveva, 2015). Bəzi tədqiqatçılar isə ölkə və ya regional investisiya siyasəti metodlarını "məqsədlərə çatmaq üçün müxtəlif səviyyələrdə institutlar tərəfindən istifadə olunan investisiya sahəsinə təsir yolları" kimi göstərirlər. Onların fikrincə investisiya prosesinin idarə edilməsi "müəyyən bir metod çərçivəsində subyektin obyektə təsiri" şəklində xüsusi alətlərin praktik istifadəsi ilə həyata keçirilir, tənzimləmə alətləri isə "tənzimləmə (idarəetmə) institutlarını təşkil edən norma və qaydaların" konkretləşdirilməsidir (Makhotaeva et al., 2015).

Dövlətin investisiya siyasətinin əsas prioritetlərinin həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi kontekstində davamlı (sustainable) investisiya və maliyyələşmə siyasəti əsas istiqamətlərdən biri olaraq irəli sürülür (Dayanıqlı investisiya və maliyyələşmə siyasəti, 2025). Burada əsas prioritetlər bir sıra məsələlərin (balanslı və inklüziv inkişafı təmin etmək, uzunmüddətli dəyər yaratmaq, mövcud və gələcək nəsillərin rifahını qorumaq) həllinə və mexanizmlərin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsinə yönəldilməlidir: -iqtisadi, sosial və ekoloji amilləri uzlaşdırmaq (ESG prinsipləri); -kapitalın məsuliyyətli və səmərəli yerləşdirilməsini əsas prioritet kimi qəbul etmək; -korporativ idarəetmədə şəffaflıq və hesabatlılığın təmin edilməsi, investisiya qərarlarının etik və strateji baxımdan əsaslandırılması.

Azərbaycanda investisiya siyasətinin prioritetlərinin reallaşdırılması investisiya mühitinin səmərəli formalaşdırılması və strateji idarəetmə metodologiyalarının tətbiqi ilə sıx bağlıdır. Burada əsas problemlər kimi dövlətin investisiya siyasətinin və tənzimlənmə formalarının davamlı olmamasının investisiyaların səmərəli idarə edilməsinə maneçiliyin mövcudluğu və investisiyanın xarici mühit amillərinə adaptasiya olunmuş strategiyasının olmamasının səmərəliliyi azaltdığı nəzərdə tutlmalıdır. İnvestisiya siyasəti prioritetlərinin icra edilməsi mexanizmlərinin təkmilləşdirilməsi zamanı aşağıdakı faktorların nəzərə alınması zəruridir:

- investisiya siyasətinin ana xətti kimi qəbul edilən mexanizmlərin uzunmüddətli dövrü əhatə etməsi;
- investisiya fəaliyyətinin səmərəli təşkili üçün sistemli tədbirlərin görülməsi və cəlbedici investisiya mühitinin yaradılması;
- müəssisə səviyyəsində investisiya strategiyasının işlənilməsinin strateji idarəetmə metodologiyasına əsaslanması;

investisiya mühitinə təsir edən daxili və xarici amillərin ciddi qiymətləndirilməsi və adekvat kompleks tədbirlərin görülməsi.

Müxtəlif sahələrə yönəldilmiş investisiyalar üzrə istifadə olunan müasir alətlər və strategiyaların tətbiqi investisiya siyasəti prioritetlərinin reallaşdırılmasında, xüsusilə qeyri-müəyyənlik şəraitində qərar qəbulu mexanizmlərinin təkmilləşdirilməsi olduqca əhəmiyyətlidir (Lara-Molina & Velasquez-Rios, 2025). Bu zaman real seçimlər yanaşması (Real Options Approach – ROA) tətbiq olunur. Bu yanaşma, bərpa olunan enerji layihələri kimi qeyri-müəyyənlik altında olan investisiyalarda geri dönməzlik (irreversibility) və çevikliyin (flexibility) dəyərini tutmaq üçün istifadə edilir. Eyni zamanda çox kriteriyalı qərar təhlili (Multi-Criteria Decision Analysis – MCDA) mexanizmi investisiya qərarlarının qəbulu zamanı bir çox amillərin nəzərə alınmasına kömək edir.

**İnvestisiya fəaliyyətinin mərhələlərinə görə investisiya siyasəti metodlarının təsnifatı.** Bu istiqamətdə aparılmış tədqiqatlardan fərqli olaraq dissertasiya işində investisiya siyasəti

metodlarının təsnifat sisteminə yanaşma konkretləşdirilir. Beləliklə, investisiya fəaliyyətinin üç mərhələdən ibaət olması işdə təklif edilir və bu mərhələlərə aşağıdakılar daxildir:

- investisiya şəraitinin yaradılması mərhələsi;
- investisiya fəaliyyətinin aktivləşdirilməsi mərhələsi;
- investisiya nəticələrinin formalaşması mərhələsi.

Metodların ümumi və selektiv (ünvanlı) bölünməsi olduqca xüsusi əhəmiyyət kəsb edir. Lakin birbaşa və dolayı təsir metodlarına bölünmə, həmçinin funksional əsasda metodların təşkilati, hüquqi, iqtisadi, kadr və informasiya təminatının alt sistemlərinə birləşdirilməsi özünün aktuallığını qoruyub saxlayır.

Ölkələrdə investisiya qoyuluşu üçün əlverişli şəraitin yaradılması mərhələsində, ilk növbədə, yaxşı investisiya mühitinin formalaşmasını təmin edə biləcək ümumi metodların tətbiq olunması məqsədəuyğun hesab edilir. İnvestisiya fəaliyyəti mərhələsinə təsir edən metodlar bu fəaliyyətin iştirakçılarının maraqları balansını təmin etməklə iqtisadi rayonlar üçün müəyyən edilmiş əsas prioritetlərin realizasiya olunmasına yönəldilmişdir. Bu qrupun fərdi metodları ümumidir, lakin onların əksəriyyəti məqsədli investorların tipləri üzrə fərqlənir və ünvanlı şəkildə istifadə olunur. Nəticələrin formalaşması mərhələsinə təsir edən metodlar da əsasən seçmə üsuluna üstünlük verir, dövlətin birbaşa iqtisadi iştirakını nəzərdə tutmadan investisiya fəaliyyətinin səmərəliliyinin artmasına köməklik göstərir (Ponyagina, 2019).

Beləliklə, tətbiqi təklif olunan bütün qrupların metodları tələb olunandır, lakin regionun tipi ilə müvafiq qrupun prioriteti arasında bir əlaqənin mövcudluğu zəruridir. Belə ki, böhran və büdcə tipli regionlar üçün investisiya şərtləri yaratmaq metodları qrupu nisbətən aktualdır. Çünki bu regionlarda investisiya yatırılması mühiti əlverişsizdir. Mövcud mühiti yaxşılaşdırmaq səyləri qeyri-kafi və təsirsiz mövqeyə malikdir və burada investisiya fəaliyyətinin təşkili son dərəcə aşağı səviyyədədir. Bu isə həmin mərhələdə ünvanlı investisiya siyasətinin həyata keçirilməsini qeyri-qənaətbəxş edir. Yüksək səviyyədə investisiya fəaliyyətinə uyğun gələn, özünü təmin edən və balanslı bölgələr üçün regional iqtisadiyyatın modernləşdirilməsinə yönəlmiş investisiya nəticələrinin formalaşdırılması metodları olduqca əhəmiyyətli hesab edilir. Qeyd edilən bu metodlar problemləri aşağı səmərəliliklə şərtlənən regionların sənaye sahələrində təsirli ola bilirlər. Bu regionların üstünlük təşkil edən hissəsində sabit, qeyri - sabit, problemli və təsir edici metodlardan iistifadə edilməsi investisiya fəaliyyəti mərhələsi üçün həlledici hesab edilir. Bu metodlar investisiya axınlarını ərazinin prioritetlərinin xarakterinə uyğun əlaqələndirməyə imkan verir. Metodların spesifik tərkibi müvafiq olaraq regional investisiya siyasətinin əsas variantından-kompromis siyasətindən, regional iqtisadiyyatın şaxələndirilməsi siyasətindən, sistemli yönümlü və ya məqsədyönlü şəkildə fərqlənir.

Tədqiqat işində bu formatda təqdim olunan metod və alətlərin təsnifatı regional vasitələr dəstinin modelləşdirilməsinə imkan verir (cədvəl 1).

**Cədvəl 1. İnvestisiya fəaliyyətinin mərhələlərinə görə investisiya siyasəti metodlarının təsnifatı**

| **Birbaşa** | **Dolayı** |
|---|---|
| **İnvestisiya şəraitinin yaradılması mərhələsinə təsir göstərən metodlar** | |
| **Təşkilati-hüquqi təminat**<br>Ümumi metod:<br>- investorların hüquqlarının qorunması və dəstək mexanizmləri haqqında normativ akt;<br>-regional investisiya qanunvericiliyinin inkişaf etmiş sistemi;<br>-investisiya sahəsində əlaqələndirici orqanın yaradılması, inkişaf institutlarının sistemi;<br>-bir "pəncərə" prinsipi ilə layihələrin dəstəklənməsi üçün vahid tənzimləmə; | **İqtisadi dəstək**<br>Ümumi metod:<br>-xüsusi vergi rejimləri.<br>**İnformasiya dəstəyi**<br>Ümumi metod:<br>-region pasportunun hazırlanması;<br>-əlverişli investisiya imicinin formalaşdırılması;<br>-investisiya portalı;<br>-investorlar və icra hakimiyyəti orqanları arasında qarşılıqlı distant fəaliyyətinin təşkili;<br>-regionun investisiya inkişafı problemlərinə dair telekörpülərin təşkili; |

<table>
<tr><td>-icazə prosedurlarının sadələşdirilməsi;<br>-regionun investisiya bəyannaməsi, regional investisiya standartı ilə müəyyən edilmiş digər elementlər;<br>-texniki, sənaye və logistika parkları, biznes- inkubatorları.<br>İqtisadi dəstək<br>Ümumi metod:<br>-regional investisiya fondunun və Regional Yenidənqurma və İnkişaf Bankının yaradılması.<br>Kadr təminatı<br>Ümumi metod:<br>-dövlət qulluqçularının təlim proqramlarında, seminarlarda iştirakı.</td><td>-reytinq agentlikləri ilə qarşılıqlı əlaqə, reytinqin təyin edilməsi;<br>-regional geoinformasiya sistemi, investisiya xəritəsi;<br>-ölkələrə və bölgələrə ziyarətçilərin paylanmasını təhlil etmək, informasiya ehtiyaclarını müəyyənləşdirmək və bu əsasda məlumatları yaxşılaşdırmaq üçün ziyarət statistikasının monitorinqi saytını təmin etmək və investisiya portalının məzmununu doldurmaq.</td></tr>
<tr><td colspan="2" align="center">İnvestisiya fəaliyyətinin aktivləşdirilməsi mərhələsinə təsir edən metodlar</td></tr>
<tr><td>Təşkilati və hüquqi dəstək<br>Selektiv metod:<br>-investisiya layihələrinin ekspertizası;<br>-texnoloji və sənaye parkları da daxil olmaq-la istehsalın ərazi yerləşdirilməsində investor-lara kömək etmək;<br>-investisiya bankları, inkişaf institutları ilə əlaqə qurmaqda, layihələrin hazırlanmasında və təqdim edilməsində region təşkilatlarına köməklik etmək;<br>-biznes nümayəndələri ilə görüşlərin və dəyir-mi masaların keçirilməsi.<br>İqtisadi dəstək<br>Selektiv metod:<br>- faiz dərəcəsi, enerji tarifləri, xərclərin subsi-diyası mühəndis və texniki dəstək şəbəkələ-rinə qoşulma;<br>-kapital maliyyələşdirilməsi, yanacaq-yağla-ma materialları (YYM) mexanizmlərindən istifadə;<br>-investisiya layihələrinin büdcə vəsaiti, regio-nal fond hesabına maliyyələşdirilməsi;<br>-regional ünvanlı investisiya proqramları;<br>-faiz subsidiyası, enerji tarifləri, kreditlər, kre-ditlərin yenidən maliyyələşdirilməsi, prioritet sahələrin inkişafı üçün dövlət zəmanətləri, istiqraz kreditləri, zəmanətli hədəf kreditləri.<br>Kadr təminatı<br>Ümumi metod:<br>-regional əmək bazarının ehtiyaclarının proq-nozunun hazırlanması;</td><td>İqtisadi dəstək<br>Ümumi metod:<br>-aktivlərin sekuritizasiyası, fərdi investisiya hesabları, investisiya bankçılığı kimi investi-siya resurslarının səfərbər edilməsinin region-nal mexanizmləri;<br>-investisiya kreditləri və kreditlər verən təşki-latlara üstünlüklər.<br>Selektiv metod:<br>-regional və yerli vergilər, torpaqdan, təbii ehtiyatlardan istifadə üçün ödənişlər, investi-siya vergi krediti üzrə güzəştlər;<br>-bankların prioritet layihələrə və sahələrə in-vestisiya yatırması üçün stimullaşdırılması;<br>-xüsusi iqtisadi zonalar;<br>-dövlət zəmanətləri, regionun girov fondun-dan istifadə.<br>İnformasiya dəstəyi<br>Ümumi metod:<br>-investisiya layihələri haqqında məlumat ba-zası;<br>-innovativ ideyalar bankı;<br>-kadr ehtiyacına dair məlumatların, peşə və ixtisaslar kontekstində məzunlar haqqında məlumatların yerləşdirilməsi ilə kadr bloku portalının məzmununa daxil edilməsi;<br>-investisiya portalının materiallarının system-ləşdirilməsi (normativ bazanın təqdimatı, prioritet sahələr, sahənin yaşayış yeri kimi təqdimatı baxımından dəstək tədbirləri).<br>Selektiv metod<br>-hədəf investorlarla qarşılıqlı əlaqə kanalları-nın yaradılması, potensial investorlara məlu-mat vermək sistemi;<br>-piar şirkətləri, imic tədbirləri, sərginin priori-tet layihələrinin ictimai müzakirəsi-layihələ-rin</td></tr>
</table>

| | |
|---|---|
| -investisiya fəaliyyətinin dəstəklənməsi ilə bağlı təlim seminarlarının keçirilməsi.<br>Selektiv metod:<br>-hədəf kadr hazırlığı sifarişləri;<br>-vergi güzəştlərinin verilməsinin investisiyaların həcmindən və orta əmək haqqının səviyyəsindən asılılığının yaradılması;<br>- əmək miqrantlarının professional təhsil sis-teminin yaradılması;<br>-regional müəssisələrin istehsal meneceri layi-hələrində iştirakına həvəsləndirilməsi. | təqdimatları, təşviqə yönəlmiş sərgi yar-markaları yerli məhsullar;<br>-investisiya kitabçası;<br>-məsləhət və metodiki xidmət;<br>-portalda investisiya pasportlarının yerləşdi-rilməsi ilə investisiya cəlbedici müəssisələrin reytinqinin tərtib edilməsi;<br>-etibarlı təşkilatların regional reytinqinin for-malaşdırılması, portalda yerləşdirilməsi;<br>-"etibarlı borcalan sertifikatı"nın verilməsi. |
| **İnvestisiya nəticələrinin formalaşması mərhələsinə təsir göstərən metodlar** | |
| **Təşkilati və hüquqi dəstək**<br>Ümumi metod:<br>-"ictimai təşəbbüs" layihəsində iştirak etmək üçün bölgə təşkilatlarının stimullaşdırılması | **Təşkilati və hüquqi dəstək**<br>Selektiv metod:<br>-resurslara qənaət edən, yüksək texnoloji, ekoloji cəhətdən təmiz sahələrin yaradılması-na kömək;<br>-proqram təminatının hazırlanmasına, yeyil-miş və köhnəlmiş avadanlıqların dəyişdiril-məsi proqramlarına təsir etmək.<br>**İqtisadi dəstək**<br>Selektiv metod:<br>- resursların qorunması, istehsalın səmərəli-liyinin və əmək məhsuldarlığının artırılması proqramlarını həyata keçirən, modernləşdirən təşkilatlara üstünlüklərin verilməsi. |

*Mənbə: (Əzizova, 2012; Erdal & Kərimov, 2002; Fyuks, 2016; Yakovlev et al., 2017) əsasında müəllif tərtib etmişdir.*

Lüğəti mənada mexanizm həm bir şeyin daxili quruluşunu, həm də hər hansı bir fenomeni (hadisəni) təyin edən təsirlərin, proseslərin, vəziyyətlərin ardıcıllığını özündə ehtiva edir. Elmi ədəbiyyatda isə mexanizm elementlərin məcmusu və onların asındakı münasibətlər sistemi və ya onları hərəkətə gətirən təsir elementləri və sistemlərinin məcmusu kimi müəyyən edilir. Bu istiqamətdə tədqiqat aparan mütəxəssislərin fikrincə *"regional investisiya strategiyasının idarə edilməsi mexanizmi regionda investisiya inkişafının məqsədlərinə nail olmaq üçün ölkə və regional (yerli) səviyyələrdə dövlət orqanları tərəfindən istifadə olunan regional investisiya proseslərinə təsir edən investisiya mənbələri, metodları, vasitələri və alətlərinin məcmusu kimi müəyyən edilə bilər"* (Kruqlyakova, 2013; Al, 2019). Fikrimizcə, investisiya mexanizminin elementlərinə aşağıdakıları aid etmək olar:

- məqsədlər və onların kəmiyyət analoqları;
- idarəetmə obyektinin elementləri və onların əlaqələri kimi başa düşülən idarəetmə amilləri;
- amillərə təsir metodları, alətlər;
- idarəetmə mənbələri.

Bu mexanizmin iş prosesi özündə ardıcıl mərhələləri (addımları), yuxarıda qeyd edilən bütün elementləri aktivləşdirməyə yönəlmiş hərəkətləri əhatə edir. Beləliklə, müxtəlif tədqiqatçıların investisiya siyasəti mexanizminin məzmununun konkretləşdirilməsinə zərurət yaranır. Fikrimizcə, bu mexanizm ölkənin investisiya prioritetlərinin həyata keçirilməsi üçün metod və vasitələrin tətbiqi metodudur və onun daxili quruluşu: subyektlər, obyektlər və alətlərin özü-təşkilati, hüquqi, iqtisadi, informasiya və kadr təminatı alt sistemlərinə birləşdirilmiş metod və vasitələrdən ibarətdir.

Fikrimizcə, investisiya fəaliyyətinin idarə edilməsinin məqsəd və prinsipləri icra mexanizmin elementlərinə daxil edilməməlidir. Prinsiplər investisiya siyasəti, o cümlədən investisiya

strategiyasının kəmiyyət parametrləri əsasında müəyyən edilir, məqsədlər siyasət çərçivəsində formalaşdırılır və konkretləşdirilir. İnvestisiya siyasəti mexanizmi bu məqsəd və prinsiplərin təmin edilməsinə, prioritetlərin həyata keçirilməsinə və xüsusilə ölkənin investisiya inkişafının portfel konsepsiyasına, yəni portfelə daxil olan sahələrin balanslı inkişafının təmin edilməsinə yönəldilmişdir. Yuxarıda əsaslandırılmış fikirlər üzrə problemin həlli istiqamətindəki fərqli yanaşmalar müəllif tərəfindən ümumiləşdirilmiş və tədqiqat işində Azərbaycanın investisiya prioritetlərinin həyata keçirilmə mexanizmi şəkil 1-də verilmişdir.

Şəkildən göründüyü kimi, investisiya mexanizmindəki subyekt-idarəetmə təsirlərini, xüsusən iqtisadi rayonlar üzrə yerli hakimiyyət orqanlarını, regional inkişafı həyata keçirmək üçün yaradılacaq ixtisaslaşmış qurumlar formasında idarəetmə təsirini icra edə bilən regionun aparıcı müəssisələrinin idarəetmə elementdir. DIS-nin obyekti ərazilərin məqsədli investisiya cəlbediciliyidirsə, investisiya mexanizminin obyektləri onu formalaşdıran komponentlərdir ki, bunlara da investisiya şərtləri, prioritet sahələr (ayrı-ayrı müəssisələr, layihələr), hədəf investor qrupları və ya məqsədli investorların əhatə dairəsi daxildir. Dissertasiya işində investisiya mexanizminin bir elementi olaraq, investisiya mənbələrini deyil, bilavasitə hədəf investorlarının nəzərdən keçirilməsi təklif olunur. Çünki onlardan istifadə etmək üçün bu cür zəruri resurslara sahib olan subyektlərlə (qurumlarla) qarşılıqlı əlaqə lazımdır.

İnvestisiya prioritetlərinin reaalizasiyası mexamizmini əks etdirən əlaqədə tədqiqatçı qeyd edir ki, subyektin obyektə təsirini metod və alətlərin tətbiqi ilə həyata keçirmək lazımdır. Kombinə edilmiş ümumi alətlər yığımı bütövlükdə əlverişli investisiya mühitini təmin edir, mülkiyyət formasından və sahə istiqamətindən asılı olmayaraq istənilən investisiyanın realizasiyasına bərabər imkanlar yaradır. Selektiv alətlər seçmə formasında istifadə olunur, onlardan sənaye tiplərinə və investorların hədəf qruplarına görə strukturlaşdırılmış paketlər formalaşır.

Qeyd edilən fikri daha ətraflı əsaslandırmaq məqsədilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının (İR) üç fərqli sahəsində investisiya portfelinin xüsusiyyətləri (investisiya və portfel) baxımından tətbiq ediləcək alətlər dəstini seçək.




**Şəkil 1. Azərbaycanın investisiya prioritetlərinin realizasiya mexanizmi**

Mənbə: müəllif tərtib etmişdir (Kombinə edilmiş alətlər yığımı)

Kənd təsərrüfatı-yüksək investisiya cəlbediciliyi və regionun maraqlarına uyğunluq, perspektivlik, resurs sahələrinin mövcudluğu baxımından cəlbedici sahədir. İnvestorların hədəf auditoriyası: 1) xarici investorlar-iri kənd təsərrüfatı holdinqləri; 2) resurslar-idxal əvəzetmə proqramları çərçivəsində.

İşğaldan azad olunmuş İR-da turizm sahəsi yüksək cəlbediciliyə və öz maraqlarına uyğundur, lakin ərazidəki turizm obyektlərinin mövcudluğu və turist cəlbediciliyi proqnozu həmin sferanı regional iqtisadiyyatın perspektivli bir sahəsi hesab etməyə imkan verir. İnvestisiya portfelində turizm resurs sənayesi tipinə aiddir. İnvestisiya təklifi bazarının təhlili əhəmiyyətinə görə sıralanan hədəf investorların üç qrupunu müəyyənləşdirə bilər: 1) dövlət və regional hədəf proqramlarının ehtiyatları; 2) İR-da restoran və otel sənayesində çalışan kiçik müəssisələr və fərdi sahibkarlar; 3) daxili və gəlmə turizm sahəsində fəaliyyət göstərməsi vacib hesab edilən turizm şirkətləri (turoperatorlar).

BOE üzrə müxtəlif növlərin quraşdırılması sahəsi yaşıl iqtisadiyyatın geniş tətbiqinə və regionun maraqlarına uyğundur, lakin ərazidəki çayların mövcudluğu və müxtəlif növ enerji mənbələrinin quraşdırılma ehtimalının yüksək olması bu sahəni perspektivli hesab etməyə imkan verir.

Strukturlaşdırılmış alətlərdən ibarət dəstlər cədvəl 2-də təqdim olunur.

Cədvəldə iki iqtisadi rayonun prioritet sahələri üzrə konkret olaraq xüsusi alətlərin növləri qısaldılmış variantda verilmişdir. Həmçinin, tədqiqat işində regional investisiya portfelinə daxil olan bütün sahələr üçün tam strukturlaşdırılmış paketlər formalaşdırılmışdır.

**Cədvəl 2. Qarabağ və Şərqi Zəngəzur İR-nın nümunəsində prioritet sahələr üçün investisiya siyasəti alət dəstinin modelləşdirilməsi**

| İnvestisiya siyasətinin alətləri | Regionun prioritet sahələri (fəaliyyət növləri) | | |
|---|---|---|---|
| | Kənd təsərrüfatı | Turizm | BOE istehsalı |
| **Təşkilati-hüquqi təminat** | - ən böyük sahə investorları ilə ünvanlı iş;<br>- ARKTN-nin himayədarlıq sertifikatı. | - layihələrin ekspertizası;<br>- AR Turizm Agentliyi ilə əlaqə;<br>- ARTA-nin himayədarlıq sertifikatı. | - bərpa olunan enerji investisiyalarına dəstək;<br>- iri investorlarla ünvanlı iş;<br>- vençur kapitalı fondları ilə əlaqə. |
| **İnformasiya təminatı** | - hədəf investorlarla effektiv informasiya kanalları;<br>- sərgi-yarmarkaların təşkili. | - investorlara məsləhət dəstəyi;<br>- sərgilər, layihə təqdimatları. | - BOE qurulmasına yönəlmiş təqdimatların təşkili;<br>- iri şirkətlərin investisiya kataloquna daxil edilməsi. |
| **İqtisadi təminat** | - vergilər üzrə güzəştlər;<br>- investisiya-vergi krediti. | - dövlət-özəl tərəfdaşlıq mexanizmləri;<br>- yeni turoperatorlar üçün vergi güzəştləri. | - yeni enerji mənbələri üçün investorlara güzəştlər. |
| **Kadr təminatı** | - əmək miqrantları üçün peşə təhsili sisteminin yaradılması. | - sfera üzrə məqsədli kadr hazırlığı sifarişi. | - investorlar nümayəndələri ilə görüşlər və dəyirmi masalar. |

*Mənbə: müəllif tərtib etmişdir.*

**İnvestisiya siyasətinin ümumiləşdirilmiş modeli.** İnvestisiya cəlbediciliyinin təmin edilməsi dövlətin investisiya siyasətinin əsas elementlərindən biridir. Dövlətin investisiya siyasəti cəlbedicilik və aktivlik baxımından ölkədə əlverişli investisiya mühittinin formalaşmasına zəmin yaradır və bu da investisiya siyasətinin ümumiləşdirilmiş modelinin işlənilməsini şərtləndirir (şəkil 2).




**Şəkil 2. Azərbaycanın investisiya siyasətinin formalaşması modeli siyasətinin formalaşması modeli**

*Mənbə: müəllif tərtib etmişdir*

Ümumiləşdirilmiş modeldən göründüyü kimi, investisiya mühiti üçün əlverişli şəraitin mövcud olması ölkədə investisiya cəlbediciliyini, təsərrüfat subyektlərinin aktivliyi isə investisiya yatırımını təmin edir. Dövlətin investisiya siyasəti investisiya prosesi və investisiya fəaliyyətinin idarə edilməsi ilə investisiya potensialının müxtəlif məkanlara istiqamətləndirilməsi ilə icra edilir. Beləliklə, tədqiqat işində təklif edilmiş investisiya siyasətini formalaşdıran ümumiləşdirilmiş model bütün ölkələrdə investisiyalaşma prosesinə həlledici təkan verməklə ölkəyə daha çox xarici investorların dəvət edilməsinə imkan verir.

Fikrimizcə, ərazinin investisiya cəlbediciliyinin artırılması problemləri Azərbaycan Respublikasının resursların mövcudluğu və təbii-iqlim amilləri ilə əlaqəli baza rəqabət üstünlükləri olmayan subyektlərində xüsusilə kəskindir. Bu cür ərazilərin inkişaf perspektivləri investisiya idarəetmə sahəsində yeni həllərin uğurlu axtarışından asılıdır.

## NƏTİCƏ

Beləliklə, səylərin müəyyən sahələrə və potensial investorların müvafiq hədəf qruplarına yönəldildiyi ərazinin investisiya cəlbediciliyinin formalaşmasına ünvanlı bir yanaşmanın həyata keçirilməsi bu qərarlardan biri ola bilər.

Bu yanaşma xüsusi bir investisiya siyasətinin və investisiya prioritetlərinin həyata keçirilməsi üçün müvafiq mexanizmin hazırlanmasını tələb edir. Dissertasiya işində belə bir mexanizm təklif edilmişdir ki, bu da investisiya siyasəti alətlərinin tərkibini və modelləşdirmə metodunu müəyyənləşdirməyə, onların fərqli istifadəsini təşkil etməyə imkan yaradır. Həmçinin, bu yanaşmadan əldə olunacaq nəticələr idarəetmə praktikasında da tətbiq oluna bilər.

## ƏDƏBİYYATLAR

Al, İ. (2019). Sürdürülebilir kalkınma ve yeşil ekonomi: Türkiye için bir endeks önerisi. Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 12(1), 112–124.

Dadaeva, M. C., Nazaeva, M. İ., & Cucullaeva, B. R. (2021). Mechanisms for the formation of regional investment policy. Bulletin of the Academy of Knowledge, 42(1), 111–113.

Dayanıqlı investisiya və maliyyələşmə siyasəti. (2025). Mingəçevir.

Erdal, A. N., & Kərimov, V. X. (2002). İnvestisiya layihələrinin hazırlanması və qiymətləndirilməsi. Bakı Universiteti nəşriyyatı.

Əzizova, G. A. (2012). Dövlətin investisiya-innovasiya siyasəti. Bakı.

Holt, R. P. F., Pressman, S., & Spash, C. L. (Eds.). (2009). Post Keynesian and ecological economics: Confronting environmental issues. Edward Elgar Publishing.

Lara-Molina, J., & Velasquez-Rios, F. J. (2025). The real option approach to investment decisions in hybrid renewable energy systems: A systematic literature review. Sustainability, 18(20), 5535.

Makhotaeva, M. Yu., et al. (2015). Formirovanie investitsionnoy politiki na regionalnom urovne. Pskovskiy gosudarstvennyy universitet.

Ponyagina, A. E. (2019). Mechanism of realization of investment priorities of the region. Rossiyskoe predprinimatelstvo, 20(1), 223–238.

Soloveva, N. S. (2015). Metody gosudarstvennogo regulirovaniya investitsionnoy deyatelnosti. Vestnik Volgogradskogo filiala MFYuA, (1), 27–34.

Круглякова, В. М. (2013). Региональная инвестиционная политика: теоретико-методологические основы, методическое и инструментальное обеспечение [Автореферат диссертации д.э.н.]. Воронеж.

Фюкс, Р. (2016). Зеленая революция: Экономический рост без ущерба для экологии (пер. с нем.). Альпина нон-фикшн.

Яковлев, И. А., Кабир, Л. С., Никулина, С. И., & Раков, И. Д. (2017). Финансирование «зеленого» экономического роста: концепции, проблемы, подходы. Международные финансы, (3), 9–21.

## SUMMARY

## MODEL OF INVESTMENT POLICY FORMATION IN AZERBAIJAN

**Rahiba Abdulhasanova**
**Nakhchivan State University, Nakhchivan, Azerbaijan**

Gold nanoparticles were successfully synthesized using the reduction method. The article examines the problems associated with a differentiated approach to classifying investment policy methods by stages of investment activity and drawing up a model for forming investment policy in the country, highlighting sustainable investment and financial policy as one of the main directions in the context of improving the mechanisms for implementing the main priorities of the state's investment policy. The purpose is to establish investment conditions based on the stages of investment policy, to identify the direct and indirect effects of methods that affect the activation of activities and the stages of formation of results. The research methodology consists of methods of system analysis, comparison, deduction and induction in identifying factors for improving the mechanisms for implementing investment policy priorities. The scientific innovation is to develop a model for the formation of investment policy in Azerbaijan. The practical significance of the article lies in the possibility of using methods of direct and indirect influence on the stages of investment activity in the development of investment policy of the state, determining the priorities of investment activity.

***Keywords:*** *investment, priorities, stages, methods of influence, formation model.*

## РЕЗЮМЕ

## МОДЕЛЬ ФОРМИРОВАНИЯ ИНВЕСТИЦИОННОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ

**Рахиба Абдулгасанова**
**Нахчыванский государственный университет, Нахчыван, Азербайджан**

В статье рассматриваются проблемы, связанные с дифференцированным подходом к классификации методов инвестиционной политики по этапам инвестиционной деятельности и разработкой модели формирования инвестиционной политики в стране, с выделением устойчивой инвестиционной и финансовой политики как одного из основных направлений в контексте совершенствования механизмов реализации основных приоритетов государственной инвестиционной политики. Цель — обеспечение инвестиционных условий на основе этапов инвестиционной политики, определение прямых и косвенных воздействий методов, влияющих на активизацию деятельности и этапы формирования результатов. Методология исследования включает методы системного анализа, сравнения, дедукции и индукции при выявлении факторов совершенствования механизмов реализации приоритетов инвестиционной политики. Научная новизна состоит в разработке модели формирования инвестиционной политики в Азербайджане. Практическая значимость статьи заключается в возможности использования методов прямого и косвенного воздействия на этапы инвестиционной деятельности при разработке государственной инвестиционной политики, определении приоритетов инвестиционной деятельности.

***Ключевые слова***: *инвестиции, приоритеты, этапы, методы воздействия, модель формирования*